*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 noyabr 2017-ci il № 86 (2203) Qiyməti 25 qəpik


*Ön xətdən reportaj*

# "Güclü bir ordunun əsgəriyəm mən!"



*...Yola düşəcəyimiz qatara minik başlanır. Vağzalda həmişəkindən fərqli insan sıxlığı müşahidə olunur. Bu da səbəbsiz deyil, bir qrup gənc ordu sıralarına yola düşürdü. Onların valideynlərinin və yaxınlarının dilindən iftixarla səslənən sözlərə şahid oluruq. "Azərbaycanımıza layiqli əsgər olun!", "Oğul, artıq Vətən sənə əmanətdir, torpaqlarımızın keşiyində möhkəm dayan", "Unutma ki, xalqımız sənə güvənir, mərd ol, cəsur ol, komandirlərinin sözündən çıxma" və s. deyimlər Vətənini, millətini sevən hər bir vətəndaş kimi mənim də ürəyimdə xoş duyğular oyadır. Rastlaşdığım nikbin baxışlar övladını əsgəri xidmətə yola salan hər bir valideynin ordumuzla qürur duyduğunu sübut edir...*

...Səhər dan yeri təzəcə ağarır. Günəş uzaqlardan, buludların arasından yavaş-yavaş ətrafı işıqlandırır. Yolumuz düşmənlə təmas xəttinədir. Kənd əhalisinin rahat və firavan yaşamasına, əkinçiliklə, maldarlıqla təhlükəsiz şəraitdə məşğul olmalarına baxanda düşünürsən ki, onların güvənc yeri Azərbaycan Ordusudur. Ölkəmizdə gedən sürətli inkişafın burada da şahidi oluruq. Gənclər evi, müasir idman kompleksi, istirahət parkı və digər göz oxşayan tikililər ucqar kəndlərimizdə belə inkişafdan xəbər verir.

...Yolların daşlı-kəsəkli olması ilə yanaşı, qar örtüyü sürücünün məsuliyyətini daha da artırır. Uzun illərdir ordu sıralarında xidmət edən və bu yollara yaxşı bələd olan təcrübəli sürücü maşını peşəkarlıqla idarə edərək, bizi döyüş mövqeyinə çatdırır. Əsgərlərlə söhbət edən zabitə yaxınlaşıram. Döyüş növbəsinə gedən heyəti təlimatlandıran baş leytenant İsmət Əvəzzadə ilə söhbətdən öyrənirəm ki, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunudur. Növbəyə gedən əsgərlərə son tapşırıq və tövsiyələrini verən zabit şəxsi heyətlə ürəkdən, həvəslə danışırdı. Hər bir əsgərə Vətəni qorumağın məsuliyyətini izah edirdi.

"Hər biriniz növbədə ayıqsayıq olun, diqqətinizi bir an belə qarşı tərəfdən ayırmayın. Unutmayın ki, qarşınızda duran mənfur düşmən təxribata əl atmaq üçün məqam gözləyir. Onlar dinc əhalimizə mərmi atacaq qədər aciz və hiyləgərdilər. Dönüb arxanıza baxın. O evləri görürsünüz? O evlərdə daim işıq yansın deyə biz buradayıq. O həyətlərdə qurbanlar kəsilsin, Novruz tonqalları qalansın, toy səsi eşidilsin deyə buradayıq. Və biz üzərimizə düşən şərəfli vəzifənin öhdəsindən layiqincə gələrək, xalqımızın, dövlət başçımız, Ali Baş Komandan İlham Əliyevin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bizə göstərdikləri yüksək etimadı doğrultmalıyıq", - baş leytenant deyirdi.

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# "Güclü bir ordunun əsgəriyəm mən!"

(Əvvəli 1-ci səhifədə)

Tabeliyində olan əsgərlərin döyüş ruhunu artırmaq, onlara Vətən sevgisinin, mənəvi-əxlaqi keyfiyyətlərin aşılanması üçün bütün biliklərini səfərbər etdiyini bildirən zabit əsgərlərlə söhbətini bitirdikdən sonra heyət növbəni təhvil alır. Vaxt tapıb bölmənin şəraiti ilə tanış oluram. Yemək otağı, hamam, əlyuma, silah doldurub-boşaltma yeri ilə yanaşı, idmanla məşğul olmaq üçün də şərait yaradılıb. Şəxsi heyətin asudə vaxtını səmərəli keçirməsi üçün nəzərdə tutulmuş otaqda şahmat, dama, domino oynamaq, həmçinin hərbi biliklərini və dünyagörüşlərini artırmaq üçün kitablar, qəzet və jurnallar gözümə dəyir. Belə nümunəvi şərait bir daha əmin edir ki, hansı uzaqlıqda, yüksəklikdə yerləşməsinə baxmayaraq, ordumuzun istənilən bölməsində əsgərlərin uğurlu xidməti üçün hər cür şərait yaradılıb.

Döyüş növbəsindən qayıdan əsgərlər sobanın ətrafında əyləşib çay içirlər. Onların yanında əyləşirəm, mənə də çay süzürlər. İçəridən təzəcə bişmiş çörəyin ətrini hiss edirəm. Sən demə, bu soba bir neçə funksiya yerinə yetirir. Sobaya nəzarət edən əsgər İsmayıl Mirzəyev hərbi xidmətə Bakı şəhərindən çağırılıb. "Bu gördüyünüz soba otağı qızdırmaqla yanaşı, onun içərisində çörək bişirmək üçün də yer var. Həm çörək bişirir, həm çay qaynadır, həm də otağı qızdırır", - əsgər deyir. Sonra təzə bişmiş çörəkdən kəsib mənə uzadır. Çörəyin ətri kəndimizi, nənəmin bişirdiyi təndir çörəyini xatırladır. Torpaqlarımızın keşiyində duran mərd, cəsur oğullarla bir stolda əyləşib çörək kəsməyin qürurunu yaşayıram. Bu igidlərlə tez bir zamanda Qarabağda görüşmək arzusu ilə ürəyim döyünür. Bu arzu təkcə mənim yox, uşaqdan-qocaya, bütün Azərbaycan xalqının illərdir ürəyində alovlanan atəşdir.

Altı aydan çoxdur xidmət edən əsgər Həsən Verdiyevi tanıyıram. Hərbi xidmətə Goranboy rayonundan çağırılıb. Əsgər xidmətindən söz açır:

- Gənc əsgər hazırlığı dövründə komandirlərimiz bizə silahlardan istifadə etməyi, döyüş, sıra hazırlığı və digər hərbi biliklər öyrətdilər. Burada yaradılan şərait, komandirlərimizin bizə doğma münasibəti döyüş ruhumuzu daha da artırır. Ailə mühitində yüksək tələbkarlıqla xidmət edirik.



Öndəki düşmənə yaxşı bələdik, onlardan qat-qat güclüyük. Ali Baş Komandanımızın əmrini gözləyirik ki, onları yurdumuzdan qovub çıxaraq.

Əsgərin söylədiklərinə, gözlərindəki qisas hissinə güvənib deyirəm ki, hər bir əsgər qəhrəmandır. Vətən sevgisi ən müqəddəs sevgidir. Bu igidlərimiz Vətən üçün son nəfəsədək mübarizə aparmağı müqəddəs vəzifə bilirlər. Valideynlər övlad acısına güc gələrək "Vətən sağ olsun" deməyi bacarırlar. Belə vətənpərvər xalqın əsgəri qarşısında heç bir qüvvə tab gətirə bilməz.

"Hər birimiz üçün Vətənə xidmət müqəddəsdir", - əsgər Elsevər Talıbov deyir. Hərbi xidmətə Lerik rayonundan çağırılan əsgərə görə, torpaqların keşiyində dayanmaq müqəddəs vəzifədir.

- Bu vəzifənin öhdəsindən layiqincə gəlmək hər birimizin, həm də valideynlərimizin arzusudur. "Əsgəri xidmətində möhkəm ol, şanlı ordumuza layiqli əsgər ol" demişdi atam. "Torpaqlarımızı qorumağa gedirsən, bu vəzifə ana Vətəninə övladlıq borcundur, sağsalamat get" - deyərək, arxamca su atmışdı anam da. Artıq bu gün mən hazırlıqlı əsgər kimi səngərdə dayanmışam. Bilirəm ki, bütün xalq bizə güvənir. Döyüş növbələrində ayıq-sayıq dayanır, verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirirəm. Xalqın güvəncinə, ordumuzun adına layiq xidmət etmək üçün əlimdən gələni edirəm.

...Bəli, Elsevərin dediyi kimi, hər bir Azərbaycan gənci üçün əsgərlik Vətən borcudur. Hərbi xidmətə çağırılan hər gənc böyük təntənə, valideynlərinin xeyir-duası ilə əsgəri xidmətə yola salınır. Və bununla da xalqın övladı olur. Torpaqlarımızın keşiyində inamla dayanmağın məsuliyyətini hiss edir. Bu məsuliyyəti yaradan isə Vətən sevgisidir. Ürəyi Vətən sevgisi ilə döyünən oğullar düşmənə göz dağıdır...

Torpaqlarımızın keşiyində inamla dayanan daha bir igid söhbətimizə qoşulur. "Əsgərliyə gələn gündən özümə söz vermişəm ki, hərbi anda sadiq, bacarıqlı döyüşçü olacaq, qəhrəmanların bizə əmanət qoyub getdiyi torpaqları göz bəbəyi kimi qoruyacağam", - deyən əsgər Kənan Tağıyev isə hərbi xidmətə Quba rayonundan çağırılıb.

- 7 aydır ki, hərbi xidmətdəyəm, - deyir. - Artıq Vətəni qorumağa qadir olan bir əsgərəm. Düşmənlə üz-üzə xidmət etmək şərəflidir. Onlardan qətiyyən qorxmuram. Torpaqlarımızın azadlığı üçün döyüşməyə hər an hazıram.

Gecə-gündüz bu səngərlərdə Vətən keşiyi çəkən oğullarla sağollaşıram. Müqəddəs bir vəzifənin - Vətəni qorumaq vəzifəsinin öhdəsindən layiqincə gələn gənclərin qətiyyətli danışıqları, bir daha əmin edir ki, Azərbaycan Ordusu tezliklə düşmən tapdağında olan torpaqlarımızı işğaldan azad edəcək. Zəfər bayramında bir daha görüşmək arzusu ilə xudahafizləşirəm...

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***14 noyabr 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 114 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Quşçu Ayrım kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt Ağdam rayonunun Şuraabad, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Kəngərli, Sarıcalı, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Hərbi Hava Qüvvələrinin hərbi hissəsinə Döyüş Bayrağı təqdim olunub



*Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsinə Döyüş Bayrağının təqdim olunması münasibətilə təntənəli mərasim keçirilib. Tədbirdə Müdafiə Nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov iştirak edib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra HHQ komandanı əlamətdar gün münasibəti ilə Müdafiə nazirinin təbriklərini şəxsi heyətə çatdırıb.

Sonra ölkə Prezidentinin müvafiq təqdimatı ilə verilən Döyüş Bayrağı hərbi hissənin komandirinə təqdim olunub. Azərbaycanın Dövlət himni səsləndirilib.

Təntənəli keçidlə Döyüş Bayrağı sıra meydanından aparıldıqdan sonra mərasim sona çatıb.



Kürdəmir rayon Mədəniyyət şöbəsinin nümayəndələrinin iştirakı ilə hərbi hissədə bayram konserti keçirilib.



# Təlim toplantısı uğurla başa çatıb

*2017-ci ilin döyüş hazırlığı planına əsasən, Əlahiddə Ümumqoşun Orduda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin gənc məzunları hərbi hissələrdə müvafiq vəzifələrə təyin edilən zabitlərlə təlim toplantısı keçirilib.*

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzindəki sinif otaqlarında və müxtəlif trenajorlarda şəxsi heyətin sürücülük və atış qabiliyyəti sınaqdan çıxarılıb. Toplantıya cəlb edilmiş zabitlərin virtual təlim meydançasında qazandıqları biliklər real döyüş şəraitinə yaxın təşkil edilmiş məşğələlərdə daha da təkmilləşdirilib.

Təlim mərkəzində müxtəlif manevrlərin dəf edilməsi, eləcə də desant hazırlığı, praktiki atışlar, müxtəlif ixtisaslar üzrə dərs və məşğələlər keçirilib, zabitlərdən məqbullar götürülüb. Əsas diqqət zabitlərin taktiki biliklərinin, qərar qəbul etmək bacarıqlarının artırılmasına yönəldilib.

Gənc zabitlərin Naxçıvan Muxtar Respublikasının tarixi-mədəni yerlərinə və muzeylərinə ekskursiyaları təşkil olunub. Həmçinin onlar Əlahiddə Ümumqoşun Ordunun ön xətdəki düşmənlə üz-üzə mövqelərində şəxsi heyətin sosial-məişət, xidmət şəraiti ilə tanış olublar.



Təlim toplantısının yekununda Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordunun komandanı general-leytenant Kərəm Mustafayev əldə olunan nəticələri yüksək qiymətləndirib və gənc zabitlərə xidmətlərində uğurlar arzulayıb.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# Xocavənd qəsəbəsində keçirilən "Bayraq yürüşü"nə 3 minə yaxın insan qatılıb

*Xocavəndli məcburi köçkünlərin məskunlaşdıqları Beyləqan rayonu ərazisindəki Xocavənd qəsəbəsində "Bayrağımız milli qürurumuzdur" devizi altında hərbi vətənpərvərlik tədbiri keçirilib.*

Müdafiə Nazirliyi və Xocavənd rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən tədbir qəsəbədəki idman kompleksindən Bayraq meydanına doğru yürüşlə başlayıb. Yürüşdə rayon ictimaiyyətinin nümayəndələri, əmək kollektivləri, idmançılar, Qarabağ müharibəsi veteranları ilə yanaşı, bölgədə yerləşən hərbi hissənin zabit və əsgərləri də iştirak ediblər.

Üç minə yaxın insanın qatıldığı tədbirin iştirakçıları "Bayraq yürüşü"nün keçirilməsini təqdirəlayiq hal kimi dəyərləndirib, üçrəngli bayrağımızın hər zaman yüksəklərdə dalğalanacağına əminliklərini bildiriblər.

Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov çıxış edərək, Azərbaycan dövlətinin və istiqlalımızın müqəddəs rəmzlərindən olan Dövlət bayrağının milli kimliyimizin simvolu adlandırıb. O, hər bir azərbaycanlının qürur mənbəyi olan üçrəngli bayrağımızın yaranma tarixindən, ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə təsis edilmiş dövlət bayrağımızın XX əsrin sonunda yenidən bərpa olunmasından danışıb.

Milli Məclisin deputatı Elman Məmmədov son illər ölkəmizin artan nüfuzundan, bayrağımızın dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında, mötəbər tədbirlərdə dalğalanmasından bəhs edib, bütün məcburi köçkünlərin işğal altındakı ərazilərimizin azad ediləcəyinə inandıqlarını bildirib.

Çıxışlarda 2016-cı ilin aprel döyüşlərindən sonra Azərbaycan Ordusuna, doğma Qarabağımızın işğaldan azad ediləcəyinə inamın daha da artdığı vurğulanıb.



Tədbirdə "Bayrağım - öz yurduma öz hakimliyim" mövzunda rəsm müsabiqəsi keçirilib. Müsabiqə qaliblərinə, eləcə də respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə qəhrəmanlıq göstərən hərbi qulluqçulara, rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup şəxsə fəxri fərman və hədiyyələr verilib.

Mərasim vətənpərvərlik mövzusunda konsert proqramı ilə davam edib. F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının, tanınmış incəsənət ustalarının iştirakı ilə keçirilən kütləvi vətənpərvərlik tədbiri böyük coşqu ilə qarşılanıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Bayraq Vətənə sədaqətin simvoludur

*Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev adına Hərbi Liseyin təşkilatçılığı ilə Dövlət Bayrağı Gününə həsr olunmuş tədbir keçirilib.*

Tədbir Azərbaycanın Dövlət himninin səsləndirilməsi ilə başlanıb.

Hərbi liseyin rəisi general-mayor Elman Orucov çıxış edərək bayrağımızın yaranma tarixindən danışıb.

Sonra videoçarx nümayiş olunub.

Hərbi qulluqçuların, kursantların, məktəblilərin ifa etdikləri mahnılar, şeirlər və rəqs nümunələri tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Dövlət bayrağının səhnəyə gətirilməsi ilə tədbir başa çatıb.

Qeyd edim ki, bu əlamətdar gün münasibətilə Əlahiddə Ümumqoşun Ordunun birləşmə, hissə və bölmələrində də tədbirlər keçirilib. Həmçinin Naxçıvan Qarnizonu tam orta məktəbində şagirdlər arasında şeir və rəsm müsabiqələri, eləcə də viktorinalar təşkil olunub, qaliblər həvəsləndirilib.

Dövlət Bayrağı Gününə həsr olunmuş tədbirlərdə uşaq, yeniyetmə və gənclərin yüksək həvəslə, vətənpərvərlik hissləri ilə iştirak etməsi hər birimizi daha da qürurlandırır və əmin edir ki, Vətənimizin gələcəyi sağlam təməllər üzərində qurulub.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# Konstitusiya Günü Hərbi Dəniz Qüvvələrində də qeyd olunub

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin təşkilatçılığı ilə Hərbi Dəniz Qüvvələrində 12 Noyabr Konstitusiya Günü münasibətilə tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin təbliğat və hərbi-kütləvi iş bölməsinin rəisi kapitan Ramil Qasımov Konstitusiya Gününün əhəmiyyətindən danışaraq qeyd edib ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və ümumxalq müzakirəsinə çıxarılan Konstitusiya layihəsi Azərbaycan Respublikasının dövlət quruculuğunun əsasını müəyyənləşdirdi. Natiq çıxışında ali hüquqi qüvvəyə malik Konstitusiyanın, eyni zamanda Azərbaycan xalqının mənəvi dəyərlərini də əks etdirdiyini vurğulayıb və tədbir iştirakçılarını Konstitusiya Günü münasibətilə təbrik edib. Çıxışı zamanı zabit hər il olduğu kimi, bu il də ölkəmizdə Konstitusiya Gününün yüksək əhval-ruhiyyə ilə qeyd edildiyini, 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş ilk millli Konstitusiyamızın qabaqcıl dünya təcrübəsinə və dövlətçilik ənənələrimizə əsaslanaraq hazırlandığını bildirib.

Çıxış üçün söz alan Mərkəzi Zabitlər Evinin mədəni-bədii iş bölməsinin müdiri Gülxar Məmmədova da Konstitusiyanın tarixi və mahiyyəti barədə məlumat verib. "Konstitusiya ölkədə siyasi sabitliyin, ictimai sülhün və milli barışığın qarantı kimi çıxış edir. Əsas Qanunumuzun qəbul olunmasından keçən müddət ərzində Azərbaycanın qazandığı nailiyyətlər, regionun lider dövlətinə çevrilməsi, ölkəmizin sanki onilliklərə bərabər inkişaf yolu keçdiyini düşünməyə əsas verir. Bu uğurların kökündə dayanan əsas səbəb ulu öndər Heydər Əliyevin siyasi kursunun müəyyən etdiyi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsidir".

Bakı Dövlət Universitetinin müəllimi, hüquq elmləri doktoru Xaliq Səfərli və hüquqşünas Ramazan Bağırov da 12 noyabr gününü Azərbaycan tarixinin əlamətdar günlərindən biri kimi xarakterizə edərək bildiriblər ki, azad cəmiyyətin aparıcı qüvvəsi olan insan amilinə önəm verilən Konstitusiyamızda insan hüquq və azadlıqlarına təminat verilir.

Çıxışlarda müstəqil Azərbaycanın ilk Konstitusiyasının ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə hüquqi baza yaratdığı, həmçinin dövlətçiliyimizin möhkəmləndirilməsi, Azərbaycanın dünyada nüfuzunun daha da artması baxımından çox mühüm ictimai-siyasi hadisə olduğu da xüsusilə vurğulanıb. Qəti əminliklə bildirilib ki, xalqımız Prezident İlham Əliyevin rəhbərliyi altında tezliklə ölkəmizin ərazi bütövlüyünün bərpasına nail olacaq və Dövlət bayrağımız yaxın zamanda Ali Baş Komandanımızın rəhbərliyi ilə bütün torpaqlarımızda dalğalanacaq.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Silahlı Qüvvələrimizin hərbi hissələrində gənc əsgərlərin andiçmə mərasimi keçirilib

*Əlahiddə Ümumqoşun Ordu, hərbi birliklər, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, Raket və Artilleriya Qoşunları, eləcə də digər təminat hərbi hissələrinin ərazilərində təşkil edilmiş mərasimlərdə öncə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Döyüş bayrağı sıra meydanına gətirilərək Dövlət himni ifa edilib. Sonra gənc əsgərlər təntənəli surətdə Hərbi andı qəbul ediblər.*



Xalqımız üçün əlamətdar olan bir payız günündə duyğularına xoş ovqat qataraq gənc əsgərlərin andiçmə mərasiminə gələn valideynlərlə "N" hərbi hissəsinin qarşısında rastlaşırıq. Oğullarının görüşünə gələn, "görüşünə" yox, "ziyarətinə" gələn valideynlərin gözlərindəki sevinci, başımızın üstündəki aydın səmanı, əzəmətli sıra meydanında sevincdən, həyəcandan yaranan göz yaşlarını qürurla seyr edirəm. Mənə elə gəlir ki, burada sevinc, fərəh hissləri üçün hərbi hissə də darlıq edir.

Nəhayət, həsrətə son qoyulur. Valideynlər və ictimaiyyət nümayəndələri hərbi hissənin ərazisinə daxil olurlar. İnsanların üzlərindən oxunan duyğular və gözlərindəki ifadələr bir çox mətləblərdən xəbər verir. Bu ifadələrdə sevinc hiss olunur, inam hiss olunur, Azərbaycan əsgərinə güvənc hiss olunur...

Polkovnik İlqar Lətifov andiçmə mərasiminə toplaşan valideynləri, ictimaiyyət nümayəndələrini bayram münasibətilə təbrik etdikdən sonra Müdafiə nazirinin və komandanlığın şəxsi heyətə təbrikləri oxundu.



Polkovnik demokratik dövlət və cəmiyyət quruculuğu baxımından böyük əhəmiyyət daşıyan, ulu öndər Heydər Əliyevin müəllifi olduğu ilk Konstitusiyamızın qəbul olunması tarixindən danışaraq gənc əsgərlərin andiçmə mərasiminin bu dəfə əlamətdar bir günə təsadüf etdiyini bildirdi.

Polkovnik Qurban Qurbanov da çıxışı zamanı ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında əvəzsiz xidmətlərindən danışdı. Ali Baş Komandan İlham Əliyevin bu yolu inamla davam etdirdiyini bildirdi. Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar nəticəsində Azərbaycan Ordusu dünyanın qabaqcıl orduları sırasına daxil olub. İndiki dönəmdə rəhbərliyin diqqət mərkəzində dayanan, dövlət quruculuğunun mühüm tərkib hissəsi olan Azərbaycan Ordusunun üzərinə böyük məsuliyyət düşür.

Millət vəkili Aydın Hüseynov vurğuladı ki, Azərbaycanın məcburi şəkildə cəlb edildiyi müharibə şəraitində düşmənlə mübarizədə əsas işi ordumuz həyata keçirir. "Buna görə də ordu quruculuğu, şəxsi heyətin döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsi, maddi-texniki bazanın inkişaf etdirilməsi Ali Baş Komandan tərəfindən Müdafiə Nazirliyinin rəhbərliyi qarşısında əsas tapşırıq kimi qoyulur."

Yeni Azərbaycan Partiyasının Sumqayıt şəhər şöbəsinin sədri Ramiz Hüseynov da söz alaraq bildirdi ki, hər bir soydaşımız dünyanın aparıcı silahlı qüvvələri sırasında layiqli yer tutan Azərbaycan Ordusunun gücü, qüdrəti ilə fəxr edir, qürur hissi keçirir.

Qarabağ müharibəsi əlili Rəşid Nəsibova görə, aprel döyüşləri sübut etdi ki, bu gün Azərbaycanla hesablaşmaq lazımdı. "Ordumuzun son vaxtlardakı uğurları, hərbçilərimizin vətənpərvərlik ruhu, işğalçı Ermənistan ordusunun təxribat xarakterli hərəkətlərinə vaxtında və layiqli cavab verilməsi sabaha olan inamımızı daha da artırır."

Tədbirdə valideynlərlə görüşmək imkanı qazanırıq.

Zaqataladan gələn əsgər atası Yusif Gülləyev oğlunun hərbi andiçmə mərasimində iştirakını ömrünün ən xoş anları hesab edir: "Xoşbəxtəm ki, Vətənini, millətini, torpağını sevən oğullardan birinin atasıyam."

- Artıq illərin necə ötdüyünü və oğlumun əsgər olmasını dərk edə bilmirəm, - deyə Mingəçevirdən gələn əsgər anası Tünzalə Məmmədova da sevincini bölüşdü. - Artıq mənim də oğlum əsgərdi. İstəyim o idi ki, ilk olaraq oğlum təhsil alsın, sonra hərbi xidmətə getsin. Ancaq oğlum Vətən sevgisini, Vətənə xidmət arzusunu əsas tutaraq hərbi qulluğa getmək qərarını verdi. Onun bu addımı mənə qürur verir. Övladımın Vətənə sevgisi qarşısında baş əyirəm. İnanıram ki, o da digər qəhrəman oğullarımız kimi canı, qanı bahasına torpaqlarımızı düşmən tapdağından azad edəcək.

Əsgər atası Rəhim Rəhimov isə bildirdi ki, gənc əsgərlərin belə bir əlamətdar gündə ordu sıralarına qədəm qoyması, Azərbaycan xalqına, dövlətinə sədaqətlə xidmət edəcəklərinə, Vətən uğrunda döyüşlərə həmişə hazır olacaqlarına, bu yolda canını və qanını əsirgəməyəcəklərinə and içmələri xüsusi əhəmiyyət daşıyır. "Konstitusiyamız Qarabağımızda, Laçınımızda, Şuşamızda, Xankəndimizdə, Xocalımızda və işğal altında olan digər ərazilərimizdə hüququn, qanunun aliliyini qorumaq intizarındadı. Üçrəngli Azərbaycan bayrağı da həmin tarixi torpaqlarda dalğalanacağı günü gözləyir. İnanıram ki, bunu Azərbaycan zabiti, Azərbaycan əsgəri reallaşdıracaq!

* * *

... Yeni bir səhər açılır. Kimlər üçün adi olan bir gün gənc əsgərlərə görə əlamətdar hadisədir. "N" hərbi hissəsinin nəzarət-buraxılış məntəqəsində insan izdihamı yaşanırdı. Əsgər valideynləri övladlarının bu xoş gününə müxtəlif bölgələrdən gəlmişdilər. Hamısı sevincli idi. Böyüdüb boya-başa çatdırdıqları, təlim və tərbiyə verdikləri övladları Vətənə sədaqət andı içəcəkdilər...



Gənc əsgərlərin təntənəli andiçmə mərasimində yüksək rütbəli hərbi qulluqçular, qonaqlar, ictimaiyyət nümayəndələri də iştirak edirdilər.

Mərasimdə gənc əsgərlərin hərbi andı qəbul etməyə hazır olmaları barədə raportu qəbul edən polkovnik Nəsif Ramazanov şəxsi heyəti salamladı və onları əlamətdar gün münasibətilə təbrik etdi.

Komanda verildikdən sonra gənc əsgərlər sıra meydanında yerləşdirilən silahların ətrafına nizami addımlarla yaxınlaşaraq, bir əli silahda bir əli isə əsgər yoldaşında Vətənə sədaqət andı içdilər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun gənc əsgərlərə təbrik məktubu oxundu. Məktubda hər bir əsgərin Vətənə layiqli övlad olacağına inam ifadə edilirdi. Xüsusi olaraq vurğulanırdı ki, Prezident cənab İlham Əliyevin Silahlı Qüvvələrin daha da möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərdiyi qayğı və diqqət hər bir gənci nümunəvi xidmətə ruhlandırır: "Hərbi and içərək respublikamızın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü göz bəbəyi kimi qorumağa söz verməklə hər biriniz bu müqəddəs andın mənasını tam dərk etməlisiniz. Bu gün hər bir vətəndaşın təhlükəsizliyi, hər qarış torpağımızın müqəddəratı məhz sizin nümunəvi xidmətinizdən asılıdır".

Gənc əsgər İbrahim Cəbrayılov silahdaşları adından çıxış edərək Vətənə sədaqətlə xidmət edəcəklərini qeyd etdi. "Bu gün biz gənc əsgərlər Hərbi and içib ordu sıralarına şərəfli xidmətimizə başlayırıq. Vətən sevgisi hər şeydən ucadır. Erməni qəsbkarları tərəfindən işğal olunan torpaqlarımızın azad olunması uğrunda vuruşmağa hər an hazırıq."

Əsgər valideyni, şair, publisist Möhsün Nəzərli isə övladının Vətənin xidmətində dayandığı üçün iftixar hissi duyduğunu bildirdi.

- Hər birinizi Vətənə sədaqət andı içdiyiniz üçün təbrik edirəm, - valideyn dedi. - Hamınız Azərbaycanın gələcəyisiniz. Sizlər Əlif Hacıyevin, Mübariz İbrahimovun, Çingiz Qurbanovun davamçılarısınız. Azərbaycan əsgəri xalqına və dövlətinə şərəf və ləyaqətlə xidmət edir. Hamımız birlikdə Azərbaycanımızın müstəqilliyini qorumalıyıq. Bir daha sizlərə bu çətin, lakin şərəfli yolda uğurlar arzulayıram.

Gəncə şəhərindən gəlmiş 39 nömrəli məktəbin şagirdləri isə vətənpərvərlik ruhlu şeirlər söyləyərək əsgər qardaşlarını təbrik etdilər.

Tədbirdə əsgərlər valideynləri ilə görüşdülər. Bir neçə valideynin sevinclərinə şərik oluruq.

(Ardı 5-ci səhifədə)

# Silahlı Qüvvələrimizin hərbi hissələrində gənc əsgərlərin andiçmə mərasimi keçirilib

**(Əvvəli 4-cü səhifədə)**

Biləsuvar rayonundan gələn Qardaşxan kişi övladı Fuad Hüseynlinin də ordu sıralarında xidmətə başladığını, Fuadın timsalında bütün əsgərləri öz övladı bildiyini qeyd etdi. "Mən bu gün orduya bir övlad vermişəm. Amma minlərlə övlad qazanmışam. Onların hər biri Azərbaycan xalqının pənahı, ümid yeridir. Biz fəxr edirik ki, müstəqil dövlətimizin güclü ordusu, güclü əsgəri var. Cənab Prezidentimizin siyasəti sayəsində dövlətimiz də, ordumuz da inkişaf edir, qüdrətlənir. Bu cür ordunun qarşısında hansı düşmən tab gətirə bilər? Qısa vaxtda biz övladlarımızla Qarabağda görüşəcəyik."



Digər valideynlər də ölkə rəhbərliyinin ordu quruculuğu sahəsində həyata keçirdiyi məqsədyönlü tədbirlərdən, Hərbi andın şərəf və məsuliyyətindən, eləcə də Silahlı Qüvvələrdə yaradılan hərtərəfli şəraitdən danışdılar.

* * *

Dövlətçiliyimizlə bağlı tarixi bir gündə keçirilən andiçmə mərasiminin daha əhatəli ovqat yaradacağını duyuram. Anaların baxışlarında çırpınan narahatlıq da duyulandı. Onlara elə gəlir ki, zaman ləng ötüşür. Analar övladlarını əsgər mundirində görəcəyi anların, gənc əsgərlər isə and içəcəyi anların intizarındadı; hərbi and içəcək, komandirləri, ata-anaları Vətənə sədaqətli olacağına, Hərbi nizamnamələrin tələblərinə böyük məsuliyyətlə əməl edəcəyinə inandıracaq. Tədbir hələ başlamayıb. Kimsə payızın sazağını hiss etmir. Sazaq belə ovqata sarıla bilməz...

...7-8 yaşlı uşağın çılğın səvinci çoxlarının diqqətini çəkir: qardaşımı tanıdım, ay ana! Elə gözəl geyinib ki! Tanımışdımı, gümanmı edirdi, bilməzdik. Könül xoşluğu gətirən bu kəlmələr Azərbaycan əsgərinə ünvanlanmışdı!..

"Oğlumuz uşaqlığında "Bir anam sən, biri Vətən" şeirini də həvəslə deyərdi. İndi Vətənin oğludu..." - az sonra öyrənəcəkdim ki, Ucar rayonundandı, əsgər Süleyman Əlyarovun anasıdı...

Gənc əsgərlər hərbi and içir. Hamı qətiyyətli səslər içində əzizinin səsini ayırd etmək üçün qədərsiz maraqla, qədərsiz sevgiylə onlara baxır. Mümkün olmayacağını bilsə də, nəfəsini içinə çəkib dinləyir: mən, Azərbaycan Respublikasının vətəndaşı... Hər kəlmə Vətənə sevgidi, Vətənə sədaqətdi, kəlmələr nə qədər doğmadı, nə qədər şirindi!

Hamı hərbi andı ayaq üstə izləyir. Duyğusal məqamdı. Böyük Qələbədən sonra bütün kəndlərimizdə, şəhərlərimizdə Azərbaycan əsgərinin dönüşü bundan da möhtəşəm coşquyla qarşılanacaq, şübhəsiz! Bir ana elə belə də deyir: qalib gələcəksiniz, qarşınıza ayaqyalın gələcəm, ay bala!..

...Polkovnik Qədir Nəsibov valideynləri də, gənc əsgərləri də bayramlar münasibətilə təbrik edir, bu günün təəssüratlarının illərlə unudulmayacağına əmin olduğunu bildirir:



- Azərbaycan Ordusunun Cənubi Qafqazda ən güclü ordu olduğunu siz də bilirsiniz. 2016-cı ilin aprel döyüşləri, qazanılan qələbə təsdiqlədi ki, ordumuz Ali Baş Komandanın istənilən əmrini yerinə yetirməyə qadirdir. Həmin döyüşlərdə əsgər və zabitlərimizin şücaəti, rəşadəti hamınıza yaxşı məlumdur. İnanıram ki, bu gün hərbi and içən əsgərlər onların layiqli davamçıları olacaqlar. Ali Baş Komandanın, Müdafiə nazirinin tələb və göstərşləri hər birinin hərbi xidmət amalı olacaq. Əziz valideynlər, sülh danışıqları baş tutmasa, Ali Baş Komandanın əmriylə torpaqlarımızı işğaldan döyüşlə azad edəcək əsgərlərin sırasında sizin oğullarınız da olacaq. Siz qalib əsgər atası, anası kimi qürurlanacaqsınız...

Adilə Vəliyeva çıxışında deyir ki, qardaşım oğlu Cavanşiri hərbi paltarda gördüyü əsgərlərin hamısının qardaşı bilirəm, onların bizim də, komandirlərinin də etimadını doğruldacağına, nümunəvi xidmət edəcəyinə də inanıram, yaxın vaxtlarda belə andiçmə bu əsgərlərin işğaldan azad edəcəyi ərazilərimizdə keçiriləcəyinə də.

Əsgər atası Rakif İbadov deyir ki, bizim hərbi xidmətimizlə bu gənclərin hərbi xidmətini müqayisə etmək mümkün deyil. O vaxtlarda nə bu şərait vardı, nə də əsgərlərə bugünkü ehtiram. Ali Baş Komandanın, Müdafiə nazirinin ön xətdə yerləşən hərbi hissələrdə əsgərlərlə hər görüşü Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığını daha da artırır. Fəxr edirik ki, belə ordumuz var, fəxr edirik ki, oğlumuz əsgərdi, Vətənin xidmətindədi...

Gənc əsgərlər adından Cəsarət Eminov çıxış edərək bildirir ki, hərbi nizamnamələrin tələblərinə ciddi əməl edəcəklər, komandirlərin, zabitlərin bütün əmr və göstərişlərini yerinə yetirəcəklər...

...Əsgərlərin nizami keçidi sevgilərlə izlənilir. Hamı bu ahəngdar səsləri yaxın vaxtlarda Cıdır düzündə izləməyin həsrətindədi. "Bu ahəngdar səslər Xəzəri də coşdurub..." - düşünürəm. Bir qədər aralıda dayanıb baxışlarını əsgərlərdən yayındırmayan ağsaqqalın pıçıltısını eşidirəm: torpaqlarımızı işğaldan siz azad edəcəksiniz!..

... Kimsə payızın sazağını hiss etmir. Sazaq belə ovqata sarıla bilmir: gənc əsgərlər hərbi and içib!..



* * *

Əlahiddə Ümumqoşun Orduda keçirilən andiçmə mərasimində də Vətənə sədaqət andı içən əsgərlər torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanacaqlarına söz veriblər.

Mərasimlərdə iştirak edənlər hərbi andı qəbul edən əsgərləri təbrik edərək xidmətlərində uğurlar arzulayıblar.

* * *

Sübh çağıdır. Hərbi hissənin nəzarət-buraxılış məntəqəsinin yanında qələbəlikdir. Bu insanlar ölkəmizin ayrı-ayrı bölgələrindən gəliblər. İzdihamın içində ağsaqqal da, ağbirçək də var. Uzaq bölgələrdən gələn bu insanların çöhrələrindən yorğunluq deyil, xoş bir təbəssüm duyulur. Burada hər kəs bayram ovqatlıdır...

Qonaqlar kənardan seyr etdikləri hərbi hissənin həyatinə daxil olacaq anı səbirsizliklə gözləyirlər. Son illərdə əsgərlərin ixtiyarına verilən müasir hərbi şəhərciyi görən valideynlər son dərəcə məmnun görünürlər. Çox keçmədi onlar hərbi hissənin sıra meydanında yerlərini tutdular. Meydanın dörd bir tərəfində bayraqlar dalğalanır. Mərkəzdə üzərində atıcı silahlar olan masalar düzülüb. Birdən "Düzlən! - Farağat!" komandası meydanda sükuta səbəb oldu. Polkovnik-leytenant Vəli Ələsgərov hərbi hissə komandirinə gənc əsgərlərin hərbi andı qəbul etmək münasibətilə düzüldükləri barədə raport verdi.

Bir müddət öncə Vətənin müdafiəsinə gələn gənc əsgərlər mətin addımlarla stolları əhatəyə aldılar. Onlar bir əllə silahdan, bir əllə silahdaşdan tutaraq and içdilər. Bu cür hərbi andın qəbul edilməsi əsgərin əsgər yoldaşına və silaha güvəncin rəmzidir.

Çıxış edən polkovnik-leytenant Aşur Mirzəyev qarşıda mühüm döyüş tapşırıqlarının qoyulduğunu və bunun üçün daim hərbi bilikləri döyüş hazırlığının vacibliyindən söz açdı. Hər an Ali Baş Komandanın verəcəyi döyüş əmrinin yerinə yetirilməsi üçün şəxsi heyətin hazır olduğunu qeyd etdi.

Hərbi andı qəbul edən gənc əsgərlər adından çıxış edən əsgər Qadir Məmmədov bildirdi ki, xidmətə başladıqları qısa müddətdə müəyyən bilk və bacarıqlara yiyələniblər. Bundan sonra da komandirlərin əmr və göstərişlərini, nizamnamələrin tələblərini yüksək səviyyədə yerinə yetirəcəklərini, döyüş vərdişlərinə alışacaqlarını bildirdi.

Valideynlər adından əsgər atası Elşən Hüseynov söz aldı. Bildirdi ki, bu gün ikiqat bayram sevincini yaşayır. "İyirmi iki il bundan əvvəl ulu öndər Heydər Əliyevin rəhbərliyi altında ərsəyə gətirilərək ümumxalq səsverməyolu ilə dövlətimizin ana qanunun qəbul edildiyi gündür. Bu əlamətdar gündə tək oğlunun Vətənə, torpağa və xalqına sədaqətlə xidmət edəcəyinə hərbi and içməsi qürurumu daha da artırıb."

Tədbirin sonunda əsgərlər təntənəli marşla tribunanın önündən keçdilər.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Mövzu:** Ümummilli lider Heydər Əliyev və azərbaycançılıq məfkurəsi.

**Suallar:**

**1. Ümummilli lider Heydər Əliyev və azərbaycançılıq məfkurəsi.**

**2. Ümummilli lider Heydər Əliyev azərbaycançılıq ideologiyasının banisidir.**

### *Ümummilli lider Heydər Əliyev və azərbaycançılıq məfkurəsi*

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin fəlsəfi, siyasi mənası olduqca dərindir. Azərbaycançılıq milli həmrəyliyi, bütövlüyü təmin edən, milli təəssübkeşlik və vətənpərvərlik hissini gücləndirən məfkurədir. Ümummilli Liderin müəllifi olduğu, sistemləşdirdiyi azərbaycançılıq ideologiyası təkcə bu ölkənin ərazisində yaşayan insanları yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edərək dünya azərbaycanlılarının milli istinad mənbəyinə çevrilib.

Ulu öndər Heydər Əliyevin şah əsəri müasir müstəqil Azərbaycan dövlətidir. Bu dövlətin ideya əsaslarını da azərbaycançılıq ideologiyası təşkil edir.

Sovet dövründə respublika rəhbəri işləyərkən Heydər Əliyevin mənəviyyat, təhsil, mədəniyyət, əxlaq, milli adət-ənənələrin qorunması və inkişafı sahəsində gördüyü işlər müstəqil dövlətimizin yaradılması ilə nəticələndi. Azərbaycançılıq ideologiyası da məhz buradan qaynaqlanır. Bu ideologiya ölkəmizdə yaşayan xalqları bir amal uğrunda birləşdirir: hamımızın Vətəni Azərbaycandır və biz müstəqil dövlətimizi qoruyub inkişaf etdirməliyik. Hələ 1978-ci ildə Azərbaycan SSR Konstitusiyası qəbul edilərkən ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə dövlət dili Azərbaycan dili kimi təsdiq olundu. Eyni zamanda, o dövrdə iqtisadiyyatı, sənayeni inkişaf etdirməklə, bu sahədə güclü baza yaratmaqla, bütün sahələr üzrə peşəkar milli kadrlar yetişdirməklə ulu öndər Heydər Əliyev müstəqilliyin əsasını qoydu.

Ulu Öndər hələ Sovet dövründə Azərbaycanı qarış-qarış gəzməyə üstünlük verirdi. Respublikanın hər bir guşəsinə səfər edən, inkişafla maraqlanan, insanların həyat tərzi ilə tanış olan Heydər Əliyev bu siyasəti yorulmadan həyata keçirirdi. Bununla da o, Azərbaycan xalqının ənənələrini, mənəvi dəyərlərini və digər milli keyfiyyətlərini ümumiləşdirərək bu ideologiyanın əsasını qoydu. Təbii ki, bunların hamısı Azərbaycanın gələcək müstəqilliyinə hesablanmışdı.

Müstəqillik illərində ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə görülən işlər azərbaycançılıq ideologiyasının təbliği və mənimsənilməsində müstəsna əhəmiyyət kəsb etdi. Ötən zaman göstərdi ki, müstəqillik yolumuz ümummilli lider Heydər Əliyevin parlaq zəkasının, onun Azərbaycan torpağına, insanına olan sevgisinin təzahürü kimi meydana çıxdı. Azərbaycan xalqı, ictimaiyyət nümayəndələri çox haqlı olaraq bu illər ərzində ölkədə bütün sahələrdə uğurlara aparan yolun parlaq bir yol olduğunu qeyd edir və bu yol Heydər Əliyev yolu adlandırılır. Bu gün ölkəmiz Ümummilli Liderin ideyaları əsasında inkişaf edir. Azərbaycanın müstəqilliyinin qorunub saxlanması, ölkəmizdə inkişafın, sabitliyin və həmrəyliyin təmin olunması bilavasitə xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır.

### *Ümummilli lider Heydər Əliyev azərbaycançılıq ideologiyasının banisidir*

Dünyanın siyasi səhnəsində dövlətlərin uzunömürlü olması ilk növbədə onun ərazisində yaşayan bütün millətləri öz ətrafında birləşdirməyi bacaran və möhkəm təməllər üzərində qurulan siyasi ideologiyasının olmasından asılıdır. Hələ min illər əvvəl Azərbaycan amili bu ərazidə yaşayan bütün xalqlar üçün birləşdirici bir məfhuma çevrilmişdir. XVI əsrdə Azərbaycanın böyük hökmdarı və qüdrətli dövlət xadimi Şah İsmayıl Xətai tərəfindən Azərbaycan türkcəsinin dövlət dili səviyyəsinə qaldırılması burada yaşayan xalqların Azərbaycan ətrafında daha sıx birləşməsində önəmli faktora çevrildi.

Tarixi dönəmlərdə bu ideyanın inkişaf etdirilməsinə zərurət getdikcə daha da gücləndirildi. Bunun ən tarixi nümunəsi XX əsrin əvvəllərində gerçəkləşdirildi. Belə ki, 1918-ci ildə qurulan və Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideologiyası daha da inkişaf etdirildi. Təsadüfi deyil ki, azərbaycançılıq ideologiyası həm də birləşdirici bir məfhum hesab olunur. Bu da ondan irəli gəlir ki, azərbaycançılıq ideyası ətrafında, etnik mənsubiyyətindən asılı olmayaraq, ölkədəki bütün insanlar birləşib. Azərbaycanda yaşayan bütün xalqlar azərbaycançılıq ideyasını birləşdirici, vəhdət yaradıcı bir ideya kimi qəbul edirlər. Azərbaycançılıq ideyasının fundamental əsaslarından birini də məhz bu faktor təşkil edir. Bu baxımdan azərbaycançılıq ideyası, demək olar ki, əhalinin bütün spektrini əhatə edir.

Əslində, azərbaycançılıq ideologiyasının çox qədim tarixi kökləri vardır. Tarixin qədim dövrlərindən başlamış müasir günümüzə qədər Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini, polietnik zənginliyini özündə yaşadan və birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası təşəkkül tapmışdır. Azərbaycan tarixən çoxmillətli ölkə, milli və dini tolerantlığın bərqərar olduğu məkan kimi tanınmış və bu üstün cəhətlər azərbaycançılıq məfkurəsinin əsasını təşkil etmişdir. Xalqımızın böyük mütəfəkkirlərinin, dövlət adamlarının, ictimai xadimlərinin fəaliyyətində bu ideya təkmilləşdirilərək tarixi zərurət forması əldə etdi.

XX əsrin 80-ci illərinin sonlarında Azərbaycanda başlayan milli-azadlıq mücadiləsi və bu müstəvidə yaşadığımız faciələr həm ölkə daxilində, həm də xaricdə yaşayan soydaşlarımızın vahid ideya ətrafında birləşdirilməsi və onların imkanlarından istifadə edilməsini taleyüklü bir məsələ kimi ortaya çıxardı. Bu məsuliyyətli və taleyüklü məsələnin həllini öz üzərinə götürən görkəmli dövlət xadimi Heydər Əliyev qısa müddətdə tarixiliklə müasirliyin tam vəhdətinə nail oldu. O, bu müstəvidə dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşdirilməsinin, Azərbaycanın gələcəyi üçün tarixi və strateji önəm daşıdığını uzaqgörənliklə müəyyən etdi. Həmin dövrdə Heydər Əliyev tərəfindən irəli sürülən azərbaycançılıq ideyası Azərbaycanın dünya birliyinə inteqrasiyasının təməl sütunlarından birini təşkil etməyə başladı.

Ümummilli lider Heydər Əliyev azərbaycançılıq ideologiyasını Azərbaycan dövlətinin ana xətlərindən birinə çevirərkən ilk növbədə tarix boyu əldə edilmiş zəngin təcrübədən məharətlə və uzaqgörən bir strateq kimi istifadə etdi. Bu baxımdan Heydər Əliyevin azərbaycançılığı ümummilli ideologiya olaraq irəli sürməsi onun Azərbaycan dövlətçiliyi naminə göstərdiyi tarixi xidmətdir. Məhz azərbaycançılıq Azərbaycana qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik bölücülük əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər oldu. Çünki azərbaycançılıq bizim keçmişimizdən gələn dəyər olaraq vahid Azərbaycanın ideya əsası, ölkədə bütün konfessiya və etnosların həmrəylik və anlaşma içində birgə yaşayışının tarixi təcrübəsidir. Bu istiqamətdə də Heydər Əliyev Azərbaycan dilinin, tarixinin ədəbiyyat və mədəniyyətinin yeni - azərbaycançılıq məfkurəsi ilə dərkinin metodologiya və strategiyasını formalaşdırdı. Onun 2001-ci il iyunun 18-də imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında", həmçinin 2001-ci il avqustun 9-da imzaladığı "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərmanı böyük tarixi-siyasi əhəmiyyətə malikdir.

Ümummilli lider Heydər Əliyev öz çıxışlarında bir vacib məqamı hər zaman diqqətə çatdırıb ki, Azərbaycanın çoxmillətli, tolerant ölkə olması bizim böyük sərvətimizdir və biz bunu qoruyub saxlamalı, dünyaya ən yüksək səviyyədə təbliğ etməliyik: "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Azərbaycanın ən başlıca sərvətlərindən biri qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan müxtəlif dinlərə etiqad edən adamlardır. Biz bunu qiymətləndiririk və saxlayacağıq. Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi Vətənidir. Azərbaycanlı sözü bizi həmişə birləşdirib".

Azərbaycançılıq ideologiyası, bir tərəfdən Azərbaycan türklərinin ölkədəki digər etnik qruplara tolerant münasibətinin, sülh içində yaşamaq istəyinin bariz göstəricisidirsə, digər yandan Azərbaycanın türk dünyasının ayrılmaz parçası olduğunun təsdiqidir. Odur ki, azərbaycançılığı realist milli inkişaf modeli olaraq qəbul edən Azərbaycan, türk dövlətləri arasında səmimi və qarşılıqlı faydalı tərəfdaşlığın olduğunu daim nümayiş etdirir.

Ulu Öndər xaricdəki azərbaycanlıların dağınıq halda yaşamaması, onların diaspor fəaliyyəti üçün milli həmrəyliyin vacib olduğunu bildirirdi. O, həm də yaxşı bilirdi ki, milli həmrəyliyin möhkəmlənməsi üçün azərbaycançılıq ideologiyası zəruridir. Məhz bu ideologiyanın təbliği nəticəsində Azərbaycanı hansı səbəbdən tərk etmələrindən asılı olmayaraq xaricdə yaşayan soydaşlarımız arasında milli həmrəylik yarandı və onlar ümummilli maraqlar naminə birlikdə fəaliyyət göstərməyə başladılar. Bunun nəticəsində də soydaşlarımız arasında azərbaycançılıq ideologiyası milli həmrəyliyin konsepsiyasına çevrildi. Prezident xarici dövlətlərə ilk səfərlərindən başlayaraq getdiyi hər bir ölkədə yaşayan həmvətənlərimizlə görüşlər keçirir, onların problemləri, qayğıları ilə maraqlanır, tövsiyələrini verirdi. Azərbaycan diasporunun yeni mərhələdə inkişaf tezislərini də məhz Ulu Öndərin həmin görüşlərdə söylədiyi fikirlər, müddəalar təşkil etmişdir. Bu baxımdan Heydər Əliyevin 2001-ci ilin noyabrında Bakıda Dünya azərbaycanlılarının I qurultayında bəyan etdiyi tezislər, əslində, azərbaycançılığın, Azərbaycan təəssübkeşliyinin ən lakonik ifadəsi idi: "Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı birləşdirən bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı yaşatmalıyıq".

Ulu öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasında tarixiliklə müasirliyin nəzəri vəhdəti əsas yer tutur. Azərbaycançılığın ümummilli ideologiya halına gəlməsi, bütün dünya azərbaycanlılarını birləşdirən məfkurəyə, müstəqil Azərbaycan dövlətinin əsasına çevrilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır. O, azərbaycançılığı dövlətçiliyə tətbiq etdi, bu məfkurəyə əsaslanan milli dövlət yaratdı, xalqda dövlətçilik hissini formalaşdırdı. Bu ideologiya Azərbaycan dövlətinə qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik əlamətlər əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər olmuşdur. Bunu onun Dünya Azərbaycanlılarının Qurultayındakı nitqi (10 noyabr, 2001-ci il) də sübut edir. Heydər Əliyevin qurultaydakı çıxışı azərbaycançılığın tarixi proqram sənədi hesab edilir. Dahi rəhbər qurultaydakı çıxışında demişdi: "Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi, həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".

Azərbaycan tarixən müxtəlif millətlərin dinc yanaşı yaşadığı, milli və dini tolerantlığın bərqərar olduğu ölkə olub. Burada hər bir xalqın və millətin nümayəndəsinə bərabər münasibət göstərilib. Ona görə Azərbaycan vətəndaşı sayılan hər kəs azərbaycançılıq ideyası ətrafında birləşib. Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası bu gün də ictimai-siyasi proseslərə, konstitusiya sisteminə, xüsusilə dövlət quruculuğuna öz müsbət təsirini göstərir.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

Redaksiyamızın qonağı

# “Musiqi ilə yaşayıram”

*Musiqi dünya mədəniyyətinin bir hissəsi kimi bəşər övladı ilə birlikdə meydana gəlib. İnsan nitq vasitəsilə ifadə edə bilmədiyini musiqinin köməyi ilə çatdırıb. Musiqi həyatın özüdü, daha doğrusu, insanların, bütün canlıların həyat simfoniyasıdı. Elə bil, dünyada küləklər də musiqi ilə əsir. Diqqət yetirsən nəğməkar bulaqların həzin pıçıltısında da min bir məna taparsan, həzin musiqi dinləyərsən. Səhərin qızaran dan yeri də, günəşin dağların arxasına çəkilib qürub etməsi də şirin bir nəğmədir. Körpəsini ovutmaq üçün beşik başında səslənən sehrli ana laylası da gerçək bir həyat əsərini xatırladır. Fəslin, məkanın, hisslərin, duyğu və arzuların, bütün insanların eyni dildə danışdığı yeganə vasitədir musiqi.*



Bu gün haqqında danışacağım Əlahiddə Nümunəvi Hərbi Orkestrin solisti gizir Kənan Akif oğlu Qədimov gözəl səsə malik ifaçılardandı. Onun səsi insanı başqa bir aləmə, yəni, xəyal aləminə aparır. Bu səs bizə dahi Müslüm Maqomayevi xatırladır. Təsadüfi deyil ki, MDB ölkələri arasında keçirilən "Katyuşa" festivalında digər millətin nümayəndələri də ona "Müslüm" deyə müraciət ediblər.

"Hər bir solist ifası ilə musiqiyə yeni nəfəs gətirməlidir, hər yazılan musiqi isə tamaşaçının qəlbinə təsir etməli və həyəcanlandırmalıdır", - deyə istedadlı solist Kənan Qədimov bizə sirli-sehrli sənət dünyasından danışdı. - 20 iyun 1990-cı ildə Sumqayıt şəhərində anadan olmuşam. 7 yaşımdan Sumqayıt Musiqi Kollecində skripkanın sirlərini öyrənmişəm. Valideynlərimin incəsənətə sonsuz həvəsi, eyni zamanda daxilimdə musiqiyə olan sevgi məni bu sənətə gətirib.

**- Valideynlərinin incəsənətə bağlılığı, musiqiyə olan sevgin skripkaçı olmağına yardımçı olub. Bəs, vokal sənətinə gəlişin...**

- Skripka üzrə 4 il təhsil aldıqdan sonra kəşf etdim ki, səsim var. Ona görə də "Yeni Ulduz" müsabiqəsinə qatıldım. Müsabiqədən sonra valideynlərim də, müəllimlərim də bildirdilər ki, bu səsi məhv etməyə sənin mənəvi haqqın çatmır. Uzun götür-qoydan, böyük sənətkarlarımızdan biri Xalq artisti Xuraman Qasımovanın xeyir-duasından sonra Azərbaycan Milli Konservatoriyasına daxil olmaq qərarına gəldim.

**- Belə çıxır ki, vokal üzrə müəllimin ustad vokalçılarımızdan biri Xuraman Qasımova olub?**

- Xeyr. Ötən illər ərzində bir vokalist müəllimim olub. O da Solmaz xanımdır. Onun sayəsində vokal sənətinin sirlərini öyrəndim, Azərbaycan Milli Konservatoriyasına daxil oldum. İtaliyada, Macarıstanda, Avstriyada və dünyanın bir çox ölkələrində keçirilən musiqi festivallarının qalibi oldum.

**- Sənin üçün həmin müsabiqələrdən ən yadda qalanı hansıdır?**

- Nalçikdə keçirilən musiqi festivalı yaddaşımın dərinliklərində gözəl bir iz buraxıb. Həmin festivalda fransız mahnısı Notre Dame de Paris "Belle"ni və xalq mahnımız "Sarı gəlin"i ifa etdim. Birinci mahnıda Kvazimoda obrazında vokal, ikincidə isə tamamilə fərqli janrda ifalarım dinləyicilərin təəccübünə və alqışına səbəb oldu. Ancaq ən maraqlısı və yadda qalanı o idi ki, ermənilərin (konsertin səs rejissoru ermənilər idi) orada "fəaliyyəti" sayəsində "Sarı gəlin" mahnısını ifa edəndə texniki qüsur baş verdi. Tərəddüd etmədən zalın auditoriyaya yaxın olan hissəsinə gəlib pianinonun müşayiəti ilə mahnını mikrafonsuz oxumağa başladım. Bu gözlənilməz hərəkətim zalda sürəkli alqışlara səbəb oldu və sonda münsiflər tərəfindən ədalətli qiymətimi aldım - birinci yerə layiq görüldüm.

**- Kənan Qədimov özünü musiqisiz təsəvvür edirmi?**




- Kənan Qədimovun həyatı birbaşa musiqiyə bağlıdı, daha doğrusu, musiqi həyatımın mənasıdır. Musiqi dühası Nikkolo Paqanini deyirdi: "Mən musiqi ilə yaşayıram. Bütün hiss etdiklərimi - duyğularımı, arzularımı musiqiyə köçürürəm". Hər günümün səhəri musiqi ilə açılır, gecəsi musiqi ilə başa çatır. Adətən yuxudan Şopenin məşhur etüdü ilə qalxıram, gün ərzində musiqi dinləyirəm və axşam təmsil olunduğum musiqi qrupu ilə birlikdə konsert proqramlarında iştirak edirəm.

**- Musiqiçi kimi hansı bəstəkarların əsərlərinə müraciət edirsən?**

- İnstrumentalçı olduğumdan əsasən bəstəkar Vivaldinin, Paqaninin əsərlərinə üstünlük verirəm. Ancaq Azərbaycan bəstəkarlarından Cahangir Cahangirovun, Elza İbrahimovanın, Tofiq Quliyevin əsərlərini də dinləyirəm. Daha çox Elza xanımın əsərləri ruhuma yaxındır.

**- Bəs müğənnilərdən kumirin kimdir?**

- Həyatda yeganə kumirim ölməz sənətkarımız Müslüm Maqomayevdi. O insanın səhnədə duruşu, səsi əvəzedilməzdi. Otağımın hər bir guşəsini onun şəkilləri bəzəyir. Mənim üçün o musiqi dünyasının birincisidir. Müasir Azərbaycan musiqi mədəniyyətinin zənginləşməsində Müslüm Maqomayevin müstəsna xidmətləri danılmazdır. Qeyri-adi istedada malik sənətkar vokal ifaçılığının qızıl fondunu təşkil edən misilsiz opera sənəti inciləri yaratdı. Müslümün xalq şairi Nəbi Xəzrinin sözlərinə yazdığı "Azərbaycan" mahnısı yorulmadan dinlədiyim mahnılar sırasındadı.

**- Kumirin olan insanı ifan zamanı təkrarlamağa çalışmırsan ki?**

- Müslüm Maqomayev istənilən əsərə möhürünü elə vurub ki, onu o səviyyədə oxumaq, dinləyicilərə sevdirmək çox çətindi. Mənim də səsim baritondu. Qeyd etdiyim kimi onun yaradıcılığına o qədər bağlanmışam ki, əsərlərini ifa edərkən ustadın cazibə qüvvəsindən kənara çıxmağa çətinlik çəkirəm. Bəzi xırdalıqlarda dahi sənətkarımızı təkrarlasam da, bütün oxuduğum əsərlərdə ürəyimi qoymağa, özüm kimi ifa etməyə çalışmışam.

**- Yaxşı müğənni və ya solist olmaq üçün daha çox nə tələb olunur?**

- Oxumaq üçün ilk növbədə Tanrının bəxş etdiyi səs lazımdı. Ondan sonra təhsil, zəhmət və təcrübə istənilən istedadın tezliklə üzə çıxmasına səbəb olur. Ali təhsil aldığım müddətdə əsasən vacib nəzəri bilikləri mənimsədim. Amma hesab edirəm ki, musiqiçi kimi formalaşmağımda təcrübəm və zəhmətim xüsusi rol oynayıb. İştirak etdiyim bütün festivallarda hər bir millətin musiqiyə və səsə yanaşma tərzini öyrəndim, millətlərin səs məşqini dinlədim.

**- Söhbətindən hiss edirəm ki, festivallarda hər bir millətin səs məşqinə xüsusi diqqət verirsən. Maraqlıdır, musiqi dinləyən zaman səni musiqi, söz, yoxsa səs daha çox cəlb edir?**

- İlk növbədə bəstəkarın musiqiyə yanaşması mənim üçün maraqlıdı. Sonra sözlərə diqqət edirəm. Yəni, əsasən musiqi və söz məni cəlb edir. Bu vəhdət təşkil edirsə, əsər ruhuma yaxındırsa, onu mənimsəməyə çalışıram. Amma Şərqli olduğumuzdan Şərqin musiqisi də qanımızdadı, bununla belə Qərb musiqisi də məni cəlb edir.

**- Musiqi dünyası və hərb sənəti. Bu iki fərqli sənəti bir araya gətirməkdə çətinliyin olmadı?**

- Uşaqlıqdan hərbçi görəndə, hərbi formaya baxanda ürəyimdən keçirdi ki, görən nə vaxtsa bu formanı geyinmək mənə də nəsib olacaq? Konservatoriyanı bitirdikdən sonra hərbi xidmətə getdim. Onda 24-25 yaşım vardı. Formanı birinci dəfə geyinəndə uşaq kimi sevinirdim. Əsgəri xidmətim Əlahiddə Nümunəvi Hərbi Orkestrdə keçib. Hərbi xidmət müddətində iştirak etdiyim tədbirlərdə rəhbərlik tərəfindən bəyənildim. Komandanlıq tərəfindən təklif olundu ki, Hərbi Orkestrin solisti olmaq arzun varsa, qal, xidmətini davam etdir. Mən də razılaşdım. 2015-ci ildən Hərbi Orkestrin giziriyəm.

**- Hərbi Orkestrdə hansı uğurların olub?**

- Xarici ölkələrin nümayəndələrinin qarşılanması və yola salınması tədbirlərində çox iştirak etmişəm. Azərbaycanda keçirilən vətənpərvərlik festivalında 2-ci yerə layiq görülmüşəm. Bu yaxınlarda isə MDB ölkələri arasında keçirilən "Katyuşa" festivalında "Vivat Pobeda" nominasiyası üzrə üçüncü yer tutmuşam.

**- Azərbaycanı hərbçi kimi xaricdə təmsil edərkən hansı hissləri keçirirsən?**

- Bir vətəndaş kimi, bir hərbi qulluqçu kimi Azərbaycanı təmsil etmək böyük şərəfdir. Qürur hissi duyuram ki, Azərbaycanı layiqincə təmsil edirəm. Münsiflər heyəti və konsertin təşkilatçıları da məndən çox razı qaldıqlarını bildirdilər. Rusiyada olan kursantlarımız, səfirliyimizin hərbi attaşesi də həmin konsertdə məni dinləməyə gəlmişdi. Qazanılan uğuru özümün deyil, Azərbaycan Ordusunun bütün şəxsi heyətinin uğuru hesab edirəm.

**- Məncə, Azərbaycan Ordusunun şəxsi heyətinin ən böyük uğuru böyük Qələbə olacaq...**

- O qələbəni hər birimiz səbirsizliklə gözləyirik. Ən böyük arzumuz odur ki, bu gün Lələtəpədə və Ağdərədə dalğalanan Azərbaycan bayrağı Şuşada, Xankəndidə tezliklə dalğalansın. Mahnılarımı tarixi torpaqlarımızda səsləndirmək həyatımda ən böyük arzumdur. Bu yolda bütün hərbçilərimizə yalnız Qələbə arzulayıram.

**Kapitan Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu",
fotolar çavuş N.PƏNAHOVUNDUR**

# Xəbərlər:
## hadisələr, faktlar

### İranda baş verən zəlzələdə ölənlərin sayı 450-yə çatıb



İranda baş verən zəlzələ nəticəsində ölənlərin sayı 450-yə çatıb, yaralıların sayı isə 7 minə yaxındır. Bu barədə xəbər verən Press TV kanalı bildirib ki, dağıntılar altından cəsədlərin çıxarılması davam edir.

İranın Fövqəladə Hallar Təşkilatının Kirmanşah idarəsinin rəhbəri Reza Mahmudian bildirib ki, hələlik 300 cəsədin çıxarılması mümkün olub. Onun sözlərinə əsasən, bəzi hallarda dağıntılar altından çıxarılan ağır yaralılar xəstəxanaya göndərilir, lakin onların həyatlarını xilas etmək mümkün olmur. Buna görə də ölənlərin sayını tam dəqiqliklə demək çətindir.

Qeyd edək ki, Azərbaycan, Rusiya, Türkiyə, Pakistan, Almaniya və başqa dövlətlər zəlzələ bölgəsinə yardım göndərmək istəklərini bildirərək İran hökumətinə müraciət ediblər.

### Ukraynada İkinci Dünya müharibəsinə aid 65 bomba və mərmi aşkarlanıb



Ukraynanın Nikolayev vilayətinin Andreevka kəndində İkinci Dünya müharibəsinə aid olan 63 aviabomba və 2 mərmi tapılıb.

1970-ci il təvəllüdlü kənd sakini şəxsi həyətində qazma işləri apararkən aviabomba aşkarlayıb.

Sonra mütəxəssislər cəlb edilib və aşkarlanan bombalar zərərsizləşdirilib.

### Türkiyədə bomba yüklü pilotsuz aparat ələ keçirilib



Türkiyənin Ağrı bölgəsindəki Doğubayazıt rayonunda, yaşayış olmayan ərazidə PKK terrorçularına məxsus bomba yüklü pilotsuz aparat ələ keçirilib.

Təhlükəsizlik qüvvələri aparatı Yaygınyurt kəndi yaxınlığında çöllükdə tapıblar. Aparat zərərsizləşdirilib.

### İraqda helikopter qəzaya uğrayıb, 7 nəfər ölüb



İraq Hava Qüvvələrinə məxsus helikopter təlim uçuşu zamanı qəzaya uğrayıb. Helikopterdə olan 7 nəfərin hamısının öldüyü bildirilir.

İraq ordusunun zabiti Hakim əl-Əsədi helikopterin Bağdadın 180 kilometr cənubundakı Vasıt vilayətinin Şorca bölgəsində qəzaya uğradığını söyləyib. Qəzanın hansı səbəbdən baş verdiyi hələlik məlum deyil.

Həmin bölgədə silahlı dəstələrin olmadığını vurğulayan Hakim əl-Əsədi qəzanın texniki səbəbdən baş verə biləcəyini ehtimal edib.

### Van gölünün dibində qədim qala divarları tapılıb



Türkiyənin Van gölünün dərinliyində tarixi qala divarları aşkarlanıb. Daş divarlar böyük bir ərazini əhatə edir.

Gölün dərinliyindəki tədqiqat işləri Van Yüzüncü Yıl Universiteti tərəfindən aparılır. İlkin ehtimala görə, təxminən 3000 il yaşı olan divarlar Adilcevaz qalasına məxsusdur. Van gölünün suyunun tərkibində çox miqdarda soda olduğu üçün qala divarlarının daşlarında çürümə müşahidə edilməyib.

**AZƏRTAC-ın materialları əsasında**

# Əlamətdar günlərin təntənəsi





*"N" hərbi hissəsində ötən istirahət günü Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin təşkilatçılığı ilə təntənəli tədbir keçirildi. Öncə ümummilli lider Heydər Əliyevin, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

Tədbiri hərbi hissə komandirinin şəxsi heyətlə iş üzrə müavini polkovnik-leytenant Nuhbala Zahidov açaraq Dövlət bayrağı və Konstitusiya günləri münasibətilə iştirakçıları təbrik etdi və bildirdi ki, hər bir dövlət yalnız vətəndaşlarının təhlükəsizliyini, onların hüquqlarının və qanuni maraqlarının qorunmasını, müdafiəsini təmin etdikdə hüquqi dövlət kimi qəbul edilir. "Müasir Azərbaycanın qurucusu, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə üçrəngli milli bayrağımız ilk dəfə 1990-cı ildə Naxçıvanda, sonra isə Azərbaycan Ali Soveti tərəfindən dövlətin əsas atributu kimi qəbul edilib. Heydər Əliyevin təməlini qoyduğu dövlətçilik ənənələri Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hər il 9 noyabr tarixi Dövlət Bayrağı Günü kimi qeyd olunur. Dövlət Bayrağı Meydanının tikilib istifadəyə verilməsi və dünyada ən hündür bayraq dirəyinin paytaxtımızda ucaldılması bunun bariz nümunəsidir."

Şəxsi heyətlə iş üzrə komandir müavini, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlal bəyannaməsindən, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə hazırlanan və 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə qəbul edilən ilk milli Azərbaycan Konstitusiyasından ətraflı bəhs etdi. Polkovnik-leytenant N.Zahidov1996-cı il fevralın 6-da ümummilli lider Heydər Əliyevin imzaladığı sərəncama əsasən hər il 12 noyabr tarixinin Konstitusiya Günü kimi qeyd edilməsinin ölkəmizin Əsas Qanununa hörmət və ehtiramın nümunəsi olduğunu vurğuladı.

Tədbirə qonaq gəlmiş əməkdar mədəniyyət işçisi polkovnik-leytenant Zöhrab İmamquliyev çıxışına ümummilli lider Heydər Əliyevin "Azərbaycanın bayrağı, sadəcə bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir", fikirləri ilə başlayaraq bildirdi ki, min illər boyu torpaqlarımızda bayraqlar dalğalanıb.

- Bayrağımız tarixin keşməkeşli yollarından keçib, illərin sınağından çıxıb, - zabit dedi. - Müstəqillik uğrunda gedən mücadilələrdə minlərlə oğul və qızlarımız bu bayrağın qorunması yolunda şəhid olub. Ona görə də hər bir azərbaycanlı üçün bayraq müqəddəsdir. Onu uca tutmaq, vüqarla dalğalandırmaq hər birimizin şərəf borcudur. Bayrağımızın Qarabağda, Şuşada, Zəngilanda, Xankəndidə... dalğalanacağı günün həsrətindəyik. 2016-cı ilin aprel döyüşlərində qazanılan qələbə nəticəsində Lələtəpədə, Bayraqtəpədə dalğalanan bayrağımız tezliklə Ali Baş Komandanın əmri ilə savaşa atılacaq Azərbaycan əsgərinin gücü ilə başqa yurd yerlərimizdə də ucaldılacaq. O gün uzaqda deyil!

Daha sonra tədbir polkovnik-leytenant Zöhrab İmamquliyevin söylədiyi vətənpərvərlik şeirləri, Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin solistlərindən Elçin Məmmədovun, Nigar Rəhimovanın, Vüsal Ağayevin və Yaqut Xəlilzadənin ifalarında "Azərbaycan", "And içirik", "Qarabağ", "Əsgər"... kimi şən musiqilər və bir-birindən maraqlı rəqslərlə davam etdi.

Sonda Dövlət bayrağımız Elçin Məmmədovun ifa etdiyi "Bu ada qurban" mahnısının sədalarıyla səhnəyə gətirildi. Əsgərlər təntənəli marşla bayrağın qarşısından keçdilər.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

## Ermənistan ordusunda daha iki əsgərin öldürülməsi faktı gizlədilib

İşğal edilmiş Azərbaycan ərazilərində yerləşdirilən Ermənistan ordusunun hərbi hissələrində daha iki əsgərin xidmət yoldaşları tərəfindən öldürülməsi faktı gizlədilib.

Hərbi qulluqçular Vladimir Melkonyan və Vartan Xaçatryanın valideynlərinə övladlarının qarşı tərəfin atəşi nəticəsində döyüş mövqeyində öldürüldüyü barədə yalan məlumat verilib. Sonradan araşdırma nəticəsində Qaboyan soyadlı şəxs şahid qismində dindirilib və onun sözlərindən məlum olub ki, hər iki hərbçi bronejiletdə olublar.

Lakin baxış zamanı ölənlərin hər ikisinin bronejiletlərinin zədəsiz və deşiksiz olduğu aşkar edilib. Bu isə erməni hərbçilərinin qarşı tərəfdən deyil, münaqişə zəminində xidmət yoldaşları tərəfindən öldürüldüyü barədə şübhələrin əsassız olmadığını sübut edir. Qəsdən adamöldürmə maddəsi ilə cinayət işi açılıb, artıq 2 nəfərin həbs edildiyi də məlumdur. Hər iki insidentlə bağlı Ermənistan Müdafiə Nazirliyi heç bir açıqlama verməyib.

Qeyd edək ki, 2017-ci ilin yanvar-oktyabr ayları ərzində rəsmi açıqlamalara görə, Ermənistan silahlı qüvvələrində müxtəlif səbəblərdən 54 nəfər ölən və 88 nəfər yaralanan var. Lakin müstəqil mənbələr bu rəqəmlərin 2-3 dəfə çox olduğunu bildirirlər.

**İsa İSMAYILOV,**
**hərbi jurnalist**

*Hərbi ənənələr, yeniliklər*

# "Qorqud" döyüş maşınları



*Türkiyənin ordu komandanlığı müasir tələblərə cavab verən özüyeriyən zenit sisteminin hazırlanmasına qərar verib. Yeni layihə şərti olaraq "Qorqud" adını alıb. Bir sıra şirkətlər də layihəyə cəlb edilib.*

Müasir döyüş texnikasının hazırlanması və istehsalına sərf olunan xərclərin azaldılması məqsədilə "Qorqud" layihəsinin müəllifləri tərəfindən özüyeriyən zenit kompleksinin tərkibinə iki növ özüyeriyən döyüş maşınının daxil edilməsi də təklif olunub. Quru qoşun bölmələrinin müdafiəsini təmin etmək üçün batareyaların tərkibində özüyeriyən döyüş qurğusunun olması vacibdir. "Qorqud" zirehli maşınlarında FNSS ACV-30 tırtıllı şassidən istifadə olunub. Çoxməqsədli ACV-30 şassisi özündə müxtəlif növlü texnikalar üçün əsas platformanı, müxtəlif cihazlanmanı quraşdırmağa qadir olan zirehli maşını təsvir edir. Onun gövdəsi möhkəm zirehli poladdan və alüminiumdan hazırlanıb. Güclü dizel mühərriki ilə təchiz edilib. Şirkətdən verilən məlumata görə, belə oxşar şassi əsasında hazırlanmış maşınların maksimal sürəti saatda 65 kilometr, ehtiyat hərəkəti 500 kilometr, uzunluğu 7 metr, eni 3,9 metr, hündürlüyü 2,2 metrdir. Ümumi çəkisi isə onda quraşdırılan cihazlanmadan asılı olaraq 30 tondan artıq olmamalıdır.

"Qorqud" hava hücumundan müdafiə kompleksinin vasitəsilə hava şəraitinin izlənilməsi və hədəflər haqqında məlumatların verilməsi də həyata keçirilir. Bu texnikalar hazırlanarkən onların şassisində radiolokasiya və optik-elektron cihazlanma dəstinin, idarəetmə aparatının, rabitə və operator pultunun quraşdırılması da təklif olunub. Bu vasitələrin çox hissəsi gövdənin daxilində yerləşdirilib. Onun xaricində isə müşahidə aparatı ilə təchiz edilmiş fırlanan qüllə, yuxarı hissəsində dönən qurğu, ön hissəsində tuşlama ötürücüsü ilə optik-elektron cihazlanma sistemi quraşdırılıb. Maşının belə təchiz edilməsi heyətə məlumatları toplayaraq komandanlığa ötürməyə imkan verir. KKA idarəetmə maşınının heyəti iriçaplı pulemyotdan istifadə etməklə döyüş tapşırığını yerinə yetirə bilər.

SSA maşınında isə silah və tuşlama vasitələri ilə təchiz edilmiş müasir qüllədən istifadə nəzərdə tutulur. Qüllənin



gövdəsi zirehli olacaq. Özüyeriyən maşın 35 mm kalibrli iki Oerlikon KDC-02 avtomat topla təchiz edilib. Bu topun avtomatikası qaz mühərriki əsasındadır və onun atəş tezliyi dəqiqədə 550 atışdır, 4 kilometr məsafədə yerləşən hədəfi məhv edə bilər.

"Qorqud" kompleksinin hər iki texnikası həm sərbəst şəkildə, həm də kənar sistemlərin köməyi ilə hava ərazisinə nəzarət edəcək, verilən tapşırıqları yerinə yetirəcək. Yeni HHM kompleksinin müsbət cəhətləri onun yüksək dərəcədə mobil olması və bir çox manevrlərin aradan qaldırılmasıdır. Çəkisinin 30 tondan çox olmamasına baxmayaraq onları hava-nəqliyyat təyyarələrindən atmaq mümkündür.

Hazırda ASELSAN şirkəti və "Qorqud" layihəsinin digər iştirakçıları bu texnikaların sınaqlarını davam etdirirlər. 2018-ci ildə ilk kompleks ordunun silahlanmasına daxil ediləcək. 2022-ci ilə qədər quru qoşunlarının tərkibinə 40 ədəd belə döyüş maşını daxil ediləcək.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
kapitan
Məhəmməd ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 577
Nüsxə 4600